

■ Xəyalə Rəis
*teatrşünas*

# Sücəddin Mirzəyev: “Ömrümün ən gözəl illərini Lənkəran teatrında keçirmişəm”

Teatr insanı insana insanla izah edən bir sənətdir deyirlər. Bu dünyanı isə bizə sevdirən, tamaşaçıları səhnədə baş verən hadisələrə inandırmağa cəhd göstərən məhz aktyorlardır. Bəzən ömrünü teatra həsr edən insanları “sənət fədailəri” də adlandırırlar. Sevindirici haldır ki, bu gün Azərbaycan teatr aləmində sənət fədailərimiz kifayət qədərdir. Ancaq təəssüflər olsun ki, biz onları çox az tanıyırıq. Bu gün sizlərə təqdim edəcəyim müsahibim də məhz belə sənətkarlardandır. Beləliklə müsahibimiz Lənkəran Dövlət Dram Teatrının aktyoru, Əməkdar artist Sücəddin Mirzəyevdir. O ömrünün 40 ilini məhz Lənkəran teatrına həsr edib. Bu teatrda çalışıb və çalışmaqda da davam edir.

40 il ərzində biri birindən maraqlı obrazlarla yaddaşlarda həkk olub. Onlardan Mixalkovun “Bahalı oğlan”ında Jora Timoxin, H. Abbaszadənin “General”ında Həzi Aslanov, H.İbsenin “Kuklalar”inda Doktor Rank, L.Korsunskinin “Fırıldaqçı”sında Ata, Ə.Nesinin “İntihar”ında Müştaq bəy, Anarın “Şəhərin yay günləri”ndə Namiq, C.Cabbarlının “Sevil”ndə Balaş, N. Nərimanovun “Nadir şah”nda Şah Təhmas, Ə.Haqverdiyevin “Bəxtsiz cavan”ında Fərhad, H.Mirələmov “Vicdanın hökmü”ndə Rəhim, “Ləyaqət”ində Kolya, X.Muradın “Ucalığ”ında Mayor, H.Mirələmov “Pənah xan Cavanşir”ində Allahqulu, A.Zeynalovun “Zəncirlənmiş toy busatı”nda Şah, H.Allahyarovun “Bir ovuc torpağ”ında Azad, Y.Əzimzadənin “Nəsrəddin”ində Nəsrəddin, Sofoklın “Şah Edip”ində Edip, Elçinin “Mənim sevimli dəlim”də ədəbi işçi, V.Səmədoğlunun “Mamoy kişinin yuxuları”nda Fərhad müəllim, M.Xubaiin “Şeytanın oyunları”nda Britannik və digər rollarını misal gətirə bilərik.

Biz də onunla söhbətləşmə şansını əldə etdik. Sücədddin müəllimlə 40 il ərzində keçdiyi şərəfli yoldan danışdıq.

**- Sücəddin müəllim, 40 ildir ki, Lənkəran Teatrında çalışırsınız. Geriyə baxanda nə zamansa peşmançılıq hissi keçirmisinizmi?**

- Bu 40 ildə digər teatrlarda işləmək şansım olsa da öz doğma teatrımı heç bir teatra dəyişməmişəm. Universiteti bitirərkən məni “Səhnə danışığı kafedrası”nda müəllim kimi saxlamaq istəyirdilər. O zaman da buna etiraz etdim. Heç də peşman deyiləm. Bu vaxta qədər gözəl bir kollektivdə işləmişəm. Hətta deyərdim ki, mən ömrümün ən gözəl illərini bu teatrda keçirmişəm.

**- 60 yaş peşəkar aktyor üçün nə deməkdir?**

- Böyük bir təcrübə deməkdir. Dost tapmaq, itirmək, müxtəlif rejissorlarla işləmək, maraqlı iş prosesində iştirak etmək, qastrollar, səfərlər...

60 yaşında mənə elə gəlir ki, bir az da püxtələşmiş, təcrübəli sənət adamına çevrilmişəm(gülürük). Lənkəran Teatrı mənə çox şey öyrədib.

**- Nəyi?**

- Həyatı, insanları... Teatr mənim üçün bir həyat məktəbi olub. Mən bu teatrda təkcə teatrımızın rejissorları, aktyor heyəti ilə işləməmişəm. Eyni zamanda ölkəmizdə tanınmış rejissorlar, aktyorlarla, teatrımıza gələn xarici rejissorlarla da çalışmışam.

**- Dostluqdan söhbət düşmüşkən, Lənkəran teatrının peşəkar aktyorlarından Təvəkkül Əliyev ötən ay dünyasını dəyişdi. Onun simasında teatr kimi itirdi?**

- Teatrımız Təvəkkülün ölümü ilə çox gözəl, peşəkar və istedadlı bir aktyoru itirdi. Səhnədə aktyor üçün əsas məqam tərəf müqabilinin yaxşı olmasıdır. Təvəkkül Əliyev həm də səhnədə gözəl tərəf müqabili olub. O, istedadlı, bacarıqla, təcrübəli aktyor idi. Allah o dünyasını versin. Təvəkkül bütün həyatını teatra həsr etmişdi. Teatr gözəl aktyorunu itirdi.

**- Lənkəran hər zaman mühafizəkarlığı ilə seçilən bir bölgə olub. Belə bir bölgədə teatr aktyoru olmaq sizə hər hansı çətinlik yaradıbmı?**

- Mən sizin fikirlərinizlə o qədər də razı deyiləm. Lənkəranlılar teatrı çox sevirlər. Teatra böyük məhəbbət bəsləyirlər. Doğrudur, son dönəmlər ictimai vəziyyətlə əlaqədar olaraq təkcə Lənkəranda deyil, bütün teatrlarda vəziyyət bir qədər gərgindir. Teatr elə gözəl bir aləmdir ki, buraya gələn insan geri dönmək istəmir. Tamaşaçıların teatra o qədər məhəbbəti var ki... Əvvəllər tamaşa bitəndən sonra tamaşaçılar bizi evə getməyə qoymurdular, bizimlə söhbətlər edirlər, obrazlarımızı müzakirə edirdilər. Deməyim odur ki, lənkəranlıların teatra olan sevgisi tamam başqadır. Bəzən yolda yaşlı nəslin nümayəndələrini görəndə soruşurlar ki, köhnə tamaşalarımızı bir də nə vaxt oynayacağıq? Biz həmin dövrü yaşamaq istəyirik. Yaşlı nəslin nümayəndələri həmin tamaşalar üçün darıxıblar. Hər dəfə görəndə bizdən o zaman oynadığımız tamaşalarımızı istəyirlər.

**- Əvvəlki tamaşaçılarla indiki tamaşaçılar arasında nə kimi fərq var?**

- İndiki tamaşaçılar gəlib tamaşaya baxıb çıxıb gedir. Tamaşada baş verən prosesləri sonradan düşünməyə başlayırlar. Əvvəlki tamaşaçılar belə deyildi. Tamaşa bitəndən sonra belə zalı tərk etmirdilər. Tamaşadan çıxanda görürdük ki, tamaşaçılar çöldə bizi gözləyirlər. Əvvəllər aktyorlar çölə çıxa bilmirdi. Bizə ayrıca avtobus ayrılırdı. İndi tamaşaçılarla görüşürsən, bazara gedirsən, artıq insanların gözündə adiləşirsən. Aktyor bir növ adiləşir. Əvvəllər tamaşaçılar həsrət qalırdı ki, mən bu aktyoru görüm. Biz universitetdə oxuyanda hansısa bir aktyoru görəndə ona həsrətlə baxırdıq. İndi əvvəlki kimi deyil.

**- Deyirlər sosial şəbəkələr də aktyorları adiləşdirir. Bəs siz necə düşünürsünüz?**

- Bu fikirlə razıyam. Mən təkcə “Facebook”da varam. Qoy dostlarım məndən inciməsinlər. Sosial şəbəkələrə o qədər də marağım yoxdur. Xoşum gələn bir şey deyil.

**- Sizə elə gəlmirmi ki, ömrünü teatra həsr edən bölgə aktyorlarını paytaxt aktyorlarına nisbətən az tanıyırlar?**

- “Əyalət” və yaxud da “bölgə teatrı” sözünü xoşlamıram. Əgər teatrda yaxşı tamaşa hazırlanırsa onun hansı teatr olmasının nə fərqi var, bölgədir, yoxsa paytaxt. Əgər sən yaxşı aktyorsansa mütləq şəkildə səni tanıyacaqlar. Paytaxt teatrında işləyən aktyorlar televiziyaya çıxışlar baxımından sözsüz ki, əyalət teatrlarından fərqlənirlər. Bölgə teatrlarının aktyorları paytaxt teatr aktyorlarından heç də az istedadlı deyillər. Yeri gələndə savadlı, bacarıqlı, qabiliyyətlidirlər. Nə olsun ki, əyalət teatrında işləyirlər? Oynadığımız tamaşaları heç də paytaxta oynanılan tamaşalardan geri, səviyyəsiz hesab etmirəm.



**- Sücəddin müəllim, arzusunda olduğunuz obrazlar varmı?**

- Sovet dövründə deyirdilər ki, hər bir aktyorun ürəyində bir arzusu var. Gənclik illərində böyük yanğılı istədiyim obrazlar olub. O zamanlar çox istəyirdim ki, teatr səhnəsində Otellonu oynayım. Teatra düşürsən, mühitə uyğunlaşırsan görürsən ki, hər şey sənin istəyinlə olmur. İnsanı mühit yetişdirir. Bəzən istəklərimizlə düşdüyümüz mühit tamamilə fərqli olur. Hansısa obrazın arzusunda olmaq, onun üçün yaşamaq bir qədər bizdən uzaqdır. İnanmıram hansısa aktyor desin ki, mən filan obrazı oynamağı arzulayıram. Nə olsun ki, arzulayırsan, sən həmin obrazı oynaya biləcəksənmi? Real şey haqda fikirləşin.

**- Son dönəmlər klassik əsərlərə yeni baxış anlayışı dəb halını alıb. Bəzən klassik əsərləri elə bir formada hazırlayırlar ki, əsər öz klassikliyini itirir.**

- Sizin fikrinizlə tamamilə razıyam. Klassik əsərə yeni baxış olar, ancaq müəyyən detallarla. Bir də görürsən ki, əsərdə elə dəyişikliklər edirlər ki, loru dildə desək özlərindən bir “hoqqa” çıxardırlar. İzləyicinin beynində yaranan təsəvvür tamam gözündən düşür. İnsan düşünür ki, belə şey olarmı? Klassik əsərləri klassik şəkildə səhnələşdirsələr inanın ki, o yenə də baxılacaq. Nəinki ona əndrəbadi bir don geyindirəsən. O tamaşanın keyfiyyətini də itirir. Əsərə yeni formada müəyyən detallar və cizgilər qatmaq olar. Başa düşürəm, rejissorların ürəyindən keçir ki, nəsə yenilik etsinlər. Ancaq kiçik bir şey edə bilərlər. Bu qədər dəyişməyin əleyhinəyəm. Klassik əsərlər klassik şəkildə də səhnələşdirilməlidir. Biz ona klassik deyirik, onda klassikanı oradan götürsünlər.

**- Tamaşaçılar isə səhnədə yenilik görmək istəyirlər. Artıq klassik əsərlərin eyniliyindən bezdiklərini deyirlər.**

- Bizim tamaşaçılar XX əsrin əvvəlində, ortasında, axırında Cəlil Məmmədquluzadənin əsərlərinə baxıblar. Hər dəfə tamaşanı müxtəlif rejissorlar qurub və müxtəlif aktyorlar oynayıblar. Mütləq dəyişiklik olmalıdır. Misal üçün Cəlil Məmmədquluzadənin “Ölülər” əsəri müxtəlif teatrlarımızda hazırlanıb. O cümlədən Lənkəran Teatrında. Biz bu tamaşanı paytaxtda da göstərdik. Teatr tənqidçiləri dedilər ki, belə bir tamaşa görməmişdik. Həmin tamaşa Az.TV-nin qızıl fondunda da saxlanılır. Mənə elə gəlir ki, “Ölülər” əsəri Lənkəran Teatrında yenidən dirildi. Baxır əsəri hansı rejissor hazırlayır. Hər aktyorun obraza öz yanaşma tərzi var. Teatra gedən adam heç vaxt o sözü deyə bilməz. Onu deyənlərin



teatrdan xəbəri yoxdur. Mən bu fikrin əleyhinəyəm.

**- Səhnədə olduğunuz bu 40 ildə neçə obraza can vermisiniz?**

- 40 ildə 70-ə qədər əsərdə obraz canlandırmışam. Obrazı yaratmısan sözü bir az çətindir.

**- Son dönəmlər çəkilən filmlərdə sizi nəyə görə görmürük?**

- Hazırda ATV telekanalında yayımlanan “Günəşim ol” serialında məktəb direktoru obrazını canlandırıram. Bundan əvvəl “Susmuş vicdan” serialında oynamışam. İndi “Günəşim ol” serialında məşğul olduğumdan başqa filmlərə çox da çəkilmirəm.

**- Serialda qeyd edilir ki, Lənkəranda qızlar daha tez ailə qurmağa vadar olunurlar. Bu ənənə hələ də davam edirmi?**

- Tək Lənkəranda deyil, ümumiyyətlə, Azərbaycanın bütün bölgələrində belə şeylər var. Sadəcə olaraq bizim Cənub bölgəsi bir az qabardılır. Bu, həqiqətdir. Amma həddindən çox deyil. Beşik kəsdi (göbək kəsdi) isə hələ də var.

**- Bəs gənc qızların teatra marağı necədir?**

- Hələ indiyə qədər heç bir problemlə qarşılaşmırıq. Çox şükürlər olsun ki, qızlarımız müxtəlif sahələrdə, müxtəlif vəzifələrdə çalışırlar. Hər zaman da öndədirlər. Gənclərin teatra gəlməsinə, baxmasında heç bir problem yoxdur. İnanın ki, universiteti bitirib teatrda işləmək istəyən qızların sayı çoxdur. Bəzən soruşuruq ki, özünüz gəlmisiniz, yoxsa valideynləriniz xəbərdardırlar? Görürük ki, valideynləri də xəbərdardır. Onlar teatra gəlirlər, özü də sevərək gəlirlər.